"Molla Nəsrəddin" – 100

Zamana qalib gələn felyetonlar

Azərbaycan

Ax unudulmuş vətən, ax yazıq vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular.

Bəs sən haradasan, ay biçarə vətən?!

Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı, inna lillahi və inna ileyhi raciun; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.

Bununla bərabər, yəni "bavücude inki" hər söz danışıldı, hər mətləbə əl vuruldu, hamı pəhlivanlarımız öz hünərlərini çıxartdılar meydana vəlakin bununla bərabər bu qədər var ki, bircə lazımlı söz ki, mənim zəndeyizəhləmi aparır-haman söz Azərbaycan vətənimin üstündədir

Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

- Dilim nə dildir?

- Azərbaycan dilidir

- Yəni vətənim haradır?

- Azərbaycan vilayətidir.

Demək çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

- Haradır Azərbaycan?

- Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayaziddən ibarət olsun.

Bilirsiniz bu söhbət haradan yadıma düşdü? Bu söhbət oradan yadıma düşdü ki, keçən həftə Tiflisdə müsəlmanların milli komitəsində bir məsələyə baxılırdı ki, aya bizim bu məclisdə nə dil ilə gərək müzakirə olunsun. Biri dedi rusca, biri dedi osmanlıca, biri dedi ermənicə. Axırda belə qərar qoydular ki, türk dili müəllimlərinin və müəllimələrinin çoxusu türkcə danışmağı yaxşı bacarmır, bu səbəbdən bunlara izn verilsin ki, rusca danışsınlar. O ki, qaldı rus darülfününunu oxuyub başa çıxan bəzi üzvlər, - bunlara da izn verildi ki, rusca danışsınlar və həqiqətdə mən ki, gedib sümük sındırıb, illər ilə kafirlər içində əlimi murdar professorlara verə-verə elm oxumuşam, insafdırmı ki, bu günkü gündə də oxuduğum elmi gizlədim və rusca danışmayım? Hərçənd məslisdə oturan əsnaflar və hətta axundlar rusca danışılan mətləbləri başa düşmürdülər, - cəhənnəmə düşmürdülər, gora düşmürdülər?

O ki qaldı Bakı qurultaylarında olan səliqə, - bu barədə yaxşısı budur ki, heç danışmayım. Onsuz da düşmənimiz çoxdur, xəbərdar olar və gəlib baxıb və qurultaylarımızda olan nəzmü-nizamı görüb bizə göz vurarlar; çənki nədənsə bizim bədxahların hamısı bədnəzərdir.

* * *

Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan? Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, keçə-papaq xoylu, meşginli, sərablı, goruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı quli-biyaban vətəndaşlarım, ey ərdəbilli, qalxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah, ağlım çaşıb! Axır dünya və aləm dəyişildi, hər bir şey qayıdıb öz əslini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək, haradır bizim vətənimiz?!

Gəlin, gəlin, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?!

Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım?!

"Molla Nəsrəddin", 27 noyabr, 1917, N 24. İmza: Molla Nəsrəddin.

"Molla Nəsrəddin"ə məxsus atalar sözləri

- Bala baldan şirindir, qoyma oxuyub gözlərinin işığı getsin. İki əldə bir qarpız tutmaq olmaz.
- Borclu borclunun sağlığını istər: dəxi borc aldın, vermə. Pulu az olanın qüssəsi də az olar. Çox pullu olmağa çalışma.
- Pişiyin əli ətə çatmır, deyir, haramdır.
- Tapan tapanın olsa, gündə bir milyon bit taparam.
- Tamarzıdan deyə-deyə al dadamala ver.
- Toxun acdan gərək xəbəri olmasın.
- Tısbağa qınından çıxsa, "obrazovannı" olar.
- Çox bilirsən, az danış, az bilirsən, çox danış.
- Çox yaşayan çox bilməz, çox yatan çox bilər.
- Halalzadə qarışdırar, haramzadə barışdırar.
- Halva könlün istəsə, dua elə qonşun ölsün.
- Haqq söz danışma, haqq söz acı olar.
- Biti olmayanın bərəkəti də olmaz.
- Haram mal halaldır.
- Plov olmasa, xalqın ağzını bağlamaq olmaz.
- Dərə xəlvət, tülkülərimiz bəy.
- Düşmən səni daş ilə, sən düşməni bozbaş ilə.
- Sakit olan səlamət olar.
- Qoyuna rəhm eləmə, qurda zülm olar.
- Borcunu verən axmaqdır.

Ùÿð äÿôÿ Úÿëèë Ìÿììÿäãóëóçàäÿ, îíóí éàðàòäûüû, éàøàòäûüû "Ìîëëà Íÿñðÿääèí" æóðíàëû éàää äöøÿíäÿ Àçÿðáàéúàí òÿñâèðè ñÿíÿò òàðèõèíäÿ òÿíãèäè ðåàëèçìèí áàíèñè âÿ éàðàäûúûñû SSçèì Àñëàí îüëó SSçèìçàäÿ äÿ åùòèðàìëà éàä îëóíóð. Î, þìðö áîéó õàëãûíû àäûíû óúà åòìÿéÿ, äþâðöí íåãàòèâ ùàëëàðûíà ãàðøû êÿñêèí ìöáàðèçÿÿ òàíèáÿòèíè àøêàð áèëäèðìÿéÿ ÷àëûøìûø, Ìèðçÿ Úÿëèë ÿíÿíÿñèíè ôûð÷àñû èëÿ äàâàì åòäèðìèøäèð.



Zəmanəsinin sənət fədaisi

Milli təsviri sənətimizdə tənqidi realizmin və qrafika janrının banisi Əzim Əzimzadə 126 il əvvəl Bakının Novxanı kəndində anadan olmuşdur. Onun bioqrafik məlumatından oxuyuruq: "Satirik qrafika, illüstrasiya, siyasi plakat və məişət janrlarında, həmçinin teatr-dekorasiya sənəti sahəsində fəaliyyət göstərmişdir". Rəssamın belə tanınması heç də asan olmamışdır. Valideynləri onun həvəsinə qarşı çıxmış, rəssamlıqla məşğul olmasına qadağa qoymuşdular. Məktəbdə dini təhsil verən molla onu tez-tez cəzalandırır, təhqir edirdi. Ancaq bütün bunlar əbəs idi. Rəssam olmaq, gördüyünü, duyduğunu kağız-kətan üzərində əbədiləşdirmək, Əzimin alın yazısı imiş. O, rəssamlıq sənətinə aid heç bir təhsil almasa da, sevdiyi peşənin ucalığına şərəflə yüksəlmişdir.

Ə.Əzimzadənin əsərləri dövrün zəngin, imkanlı adamları tərəfindən heç də birmənalı qarşılanmırdı. Çünki onlar rəssamın əl işlərinə baxan kimi öz obrazlarını görürdülər. Əzim Əzimzadə heç bir çətinliyə, təzyiq və təqiblərə baxmadan yazıb yaradır, həvəskar vərdişindən peşəkarlıq səviyyəsinə yüksəlirdi. Qədirbilən insanlar tərəfindən tanınır və alqışlanırdı.

Mirzə Cəlil gənc rəssam Əzimlə görüşür. Onlar jurnalın gələcək planları barədə xeyli söhbətləşirlər. Rəssamın əl işləri ilə daha yaxından tanış olan və onların hər birindən zövq alan ustad Mirzə Cəlil məsləhət bildi ki, bir yerdə əməkdaşlıq etsinlər. Belə də olur. Doğrudur, ürəyi daim yenilik eşqi ilə döyünən Mirzə Cəlilin yaradıcılıq istəyinə Əzim ilk vaxtlar əsərləri ilə cavab vermək səviyyəsinə malik deyildi. Ancaq həvəsdən də düşmür, məsləhətlərə əməl edir, etimadı doğrultmağa çalışardı. Jurnalın 21-ci sayında Mirzə Cəlil yazmışdır: **"Əzimin karikaturaları zəmanənin aynası kimi bizlərə göz ağardıb diş qıcayanları olduğu kimi göstərir".**

Ə.Əzimzadə sonralar digər qəzet və jurnallarla yaradıcılıq əlaqəsi saxlayıb əməkdaşlıq edəndə də ideya və məsləkinə sadiq qalmışdır. Bakıda işıq üzü görən "Zənbur", "Baraban", "Məzəli", "Tuti", "Babayi-Əmir" satirik toplularına çəkdiyi karikatura və yumoristik rəsmlər bu gün də öz aktuallığını saxlamaqdadır. Rəssamın yaratdığı əsərlərdə müharibə törətməyə cəhd göstərən qüvvələr tənqid edilir, insanın insana qəsdi, qənim kəsilməsi satira atəşinə tutulur və ifşa olunurdu. Bu baxımdan Ə.Əzimzadənin "Balkan ölkələrində", "Balkan məsələlərində biz bitərəfik", "Avropa diplomatiyasının qələbəsi" karikaturaları xarakterikdir.

Rəssam əsərlərində əsasən mollanəsrəddinçiləri daim narahat edən, düşündürən mövzuya toxunurdu. "İranın müasir vəziyyəti", "Balıq ovu", "Pul hər şeyi həll edir", "Yalançı bitərəflik" və bir çox başqa rəsmləri diqqəti daha çox çəkirdi.

Əzim Əzimzadə həm də zəmanənin ən məşhur kitab qrafika ustası kimi tanınmışdır. Mirzə Ələkbər Sabirin "Hophopnamə" əsərinə çəkdiyi illüstrasiyalar hələ də öz ideya-bədii dəyərini itirməmişdir. Rəssam mövzuya uyğun yaratdığı müxtəlif tiplərin obrazlarını, unudulmaz şairin fikrini inandırıcı şəkildə əyaniləşdirmiş, Sabir satirasının anlaşılmasını daha da asanlaşdırmışdır. Şairin "Satıram", "Fəhlə", "Dilənçi", "Əkinçi" və başqa tənqid-satira ruhlu şeirlərinə həsr etdiyi rəsmlər yaddaqalımlı təsvirləri ilə olduqca baxımlıdır. Əsərlərində mənfi qəhrəmanlar təkcə zahirən damğalanıb ifşa olunmamışdır. Bu tiplərin cəmiyyətdə yetişməsinin əsas kökü, mahiyyəti açıqlanmışdır. Əzim Əzimzadə özündən sonra elə bir məktəb yaratmışdır ki, onun çox zəngin irsindən bəhrələnən təsviri sənət nümayəndələri Azərbaycan rəssamlığını inkişaf etdirmişlər.

M.TELMAN, "Azərbaycan"

"İstot" imzalı müxbir

"Molla Nəsrəddin" jurnalının səhifələrində gizli imzalarla çıxış edən yazarlardan biri də Nuşirəvan Kərimov adlı bir müəllif olub. Əsasən "İstot" imzası ilə jurnala müxtəlif yazılar və satirik şeirlər göndərən Nuşirəvan Kərimov dövrünün məşhur ziyalılarından biri olub. O, xalqın maariflənməsi yolunda həqiqi mənada zəhmət çəkən bir müəllim kimi uzun illər həm də pedaqoji fəaliyyəti ilə ad-san qazanmışdı. Təəssüf ki, onun haqqında çox az yazılıb.

Əlbəttə, bütün imza sahiblərinin aşkarlanması çox çətindir. Uzun illərdir ki, tədqiqatçılar bu yöndə apardıqları araşdırmaları hələ də tamamilə başa çatdıra bilməyiblər. Amma bu imzaların sahiblərinin dəqiqləşməsi, onların haqqında oxuculara məlumat verilməsi vacibdir. Çünki milli tərəqqi, təhsil, maariflənmə naminə mübarizə apararaq öz ömürlərini bu müqəddəs yolda gilə-gilə əridənlərin xalqa tanıdılması gərəklidir. Birinci ona görə ki, xalq öz mücahidlərini unutmamalı, ikinci də belə şəxsiyyətlərin ədəbi irsinin daim öyrənilməsi gənc nəsil üçün bir nümunədir.

Nuşirəvan Kərimov 1898-ci ildə Zəngəzur mahalının Qarakilsə bölgəsinin (indiki Sisian) Sofulu kəndində məşhur bəy ailəsində anadan olmuşdur. O dövrdə Azərbaycan torpaqları hələ bu dərəcədə parçalanmamışdı. Doğulduğu kənd Nuşirəvangilin yaylaq yeri, dağın o üzündəki Xocamsaxlı kəndi (Qubadlının kəndi) isə qışlaq idi. Nuşirəvanın babası Molla Səfi Zəngəzurda tanınmış adam olub. O, yalnız mollalıqla deyil, müəllimliklə də məşğul olubmuş. Dövrün özünəməxsusluğundan gələn ifadədir ki, savadlı insanları həm də "Molla" adlandırırmışlar. Babadan gələn ənənəni Nuşirəvan da davam etdirirmiş. Nəvəsi tanınmış şair Rafiq Yusifoğlu söyləyir ki, mən ilk dəfə Quranı babamda görmüşəm. Sovet hökuməti vaxtında o, bu müqəddəs kitabı gizli saxlayar, amma hər gün onu öpüb və oxuyardı.

Nuşirəvan Kərimov 1931-ci ildə Şuşa Pedaqoji Texnikumunu bitirdikdən sonra Qubadlıya qayıdaraq Xocamsaxlıda ibtidai məktəbin açılmasına nail olub. O vaxta qədər bu kənddə məktəb olmayıb. Pedaqoji fəaliyyəti müxtəlif təltiflərə layiq görülüb. O, respublikanın əməkdar müəllimi olub, Lenin ordeni, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri və medallarla, müxtəlif fəxri fərmanlarla təltif edilib. Rafiq müəllim danışır: "Babam həmişə mənə öz şeirlərindən oxuyardı. Bir niskili var idi ki, ölüb gedəndən sonra şeirləri itib batacaq. Təəssüf ki, belə də oldu. Onun şeirlərinin bir qisminin əlyazması məndədir. Ancaq şeirlərin çoxu öz evində idi. Bəxtimizə qaçqınlıq payı düşəndə həmin yazılar da Qubadlıda qaldı. Uşaq vaxtı anamdan belə bir şeir öyrənmişdim:

Deməyəsən bir zəli,
Nə zəli, lap məzəli,
Girmiş imiş bir suya,
Özün vurub yuxuya...

Şeir çox uzundur. Anam deyirdi ki, bu şeir babanındır. Elə babamın dilindən də onun bəzi misralarını eşitmişdim. Sonralar isə həmin şeiri "Molla Nəsrəddin"də oxudum, müəllifi "İstot" imzalı bir şəxs idi. Şair Qasım Qasımzadə və tədqiqatçı Rəşid Quliyevin araşdırmaları nəticəsində məlum oldu ki, həmin ləqəbin sahibi mənim babamdır".

Nuşirəvan Kərimov "İstot" imzası ilə "Molla Nəsrəddin" jurnalında dərc olunarmış. Onun 30-cu illərdə jurnalın müxtəlif nömrələrində dərc edilmiş "Molla Lətif", "Ağlaşma", "Zəhmətkeşlərə" şeirləri, eləcə də "Aşıq" imzası ilə yazdığı "Yeni pir", "Fırıldaqçı molla" felyetonları eyni dəstt-xətlə, eyni bölgədən yazıldığı bəllidir. Hətta kənddə məktəb binasının bərbad vəziyyəti ilə bağlı "Molla Nəsrəddin" jurnalında "Qubadlıdan" rubrikası ilə müxtəlif tapmacalar da verilmişdi ki, onun da müəllifi məhz Nuşirəvan Kərimov olduğu təsdiqlənib. Tapmaca belə idi:

"Molla Nəsrəddin"in yazarlarından

O nədir ki, zığı var,
Altında çubuğu var.
Pəncərəsi yoxsa da,
Hər yandan işığı var?

Cavab isə belə idi:
Çəpərədir, zığı var,
Altında çubuğu var.
Gilətağ məktəbidir,
Hər yandan işığı var.

Söhbət Zəngilandakı Gilətağ kəndində o zamankı "çəpərə" məktəbdən gedirdi. Nuşirəvan Kərimovun "Molla Nəsrəddin" jurnalında çap edilmiş məşhur "Zəli bulaq" şeiri məhz Qubadlı ərazisindəki zəli ilə dolu bulağın insanlara gətirdiyi bədbəxtlikdən, xəstəlikdən söhbət açılıb. Həmin şeirin sonunda müəllif - "İstot" üzünü jurnala tutaraq deyirdi:

Molla əmi, müxtəsər,
Yaz bizə doğru xəbər.
Görək belə dərdlərin,
Dərmanını kim verər?

"Molla Nəsrəddin" jurnalının 1930-cu il üçüncü sayında dərc edilmiş bu şeirə Mirzə Cəlil özü belə cavab vermişdir:

Qurtarmağa bu dərddən,
Ayrı dərman gəzmə sən.
Kəndli deyil ki, dəli,
Udmasın giri zəli.
Tənbəlliyi atsınlar,
Səlamətə çatsınlar.
Təmir etsin bulağı,
Ta dincəlsin qulağı.

"Molla Nəsrəddin" jurnalının bu çıxışından sonra bulaq təmir edilmiş, məktəb binası tikilib başa çatdırılmışdır. Şair Qasım Qasımzadə yazdığı tərcümeyi-halında göstərirdi ki, ibtidai məktəbdə ona dərs deyən ən əziz müəllimi Nuşirəvan Kərimov olub.

Məlumdur ki, ötən əsrin 30-cu illəri çox təzadlı olub. Sinfi mübarizənin qızğın dövründə gənclər yalnız inqilab, kommuna mövzusunda şeirləri oxumağa məcbur idilər. Dövrün məxsusluğundan Nuşirəvan Kərimov da kənarda qalmayıb, onun yazdığı mətnə hətta musiqi də qoşublarmış:

Kommunanın yolun tutub gedirik,
Nikolay yıxılb, bayram edirik.
Fəhlə qardaş!
Kəndli qardaş!
Birləşərsək ikimiz,
Çox xoş gedər günümüz.

Əlbəttə, məzmununda 30-cu illərin ruhu çırpınan bu misralar indi adi görünsə də, zamanın nəğməsi, dövrün həqiqəti idi. Bu səsdə köhnəliyə, ayrı-seçkiliyə nifrət, yeniliyə çağırış çox coşqun əks-səda tapırdı. Əvvəllər "Molla" adlanan Nuşirəvan Kərimova sovet dövründə "müəllim" deyirdilər. Nuşirəvan Kərimov sözün həqiqi mənasında ziyalı olduğundan soydaşlarının elmə, təhsilə maraq göstərməsində, savadlanmasında, oxumasında böyük zəhmət çəkmişdir. O dövrdə yalançı, dövrün diktəsinə uyğun hərəkət edənlər də var idi. Köhnə "Molla nəsrəddin"çi bu hallara da biganə qala bilmirdi. Dillər əzbəri olan bir şeiri həm "Molla Nəsrəddin" jurnalının səhifələrində, həm də yaddaşlarda qalmaqdadır:

Köhnə fikirlər hanı, təzələnir hər nə var,
Xalq oyanıb büsbütün, kimlər onu aldadar.
Gəldi həvəskar olub kursa, bütün mollalar,
Bir mən ölüm, diqqət et, köhnə-təzə adətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.
Çıxarıb aparıb pirə çoxları öz çuxasın,
Geyib rubaşqanı, düymələyib yaxasın.
Əyninə kostyum taxıb, gizlədibdir əbasın,
Gör necə şıx yeriyir, bax bu boya, qamətə,
Molla müəllim olub, ləzzətə bax, ləzzətə.

Adını "müəllim" siyahısına saldırmaq üçün özünü oda-közə vuraraq pedaqoji kurslarda təhsil alıb, əslində elə köhnə təfəkküründə qalan "mollanümalar" haqqında yazdığı bu şeirdə Nuşirəvan müəllim dövrün ab-havasını sabiranə şəkildə əks etdirib.

Onun yazıları "Molla Nəsrəddin" jurnalında "İstot", "Aşıq" və digər məxfi imzalarla çap edilsə də, bunların kim tərəfindən yazıldığını Zəngəzur mahalında hamı bilirdi. Jurnal nəşrini dayandırdıqdan sonra da Nuşirəvan Kərimov öz fəaliyyətini digər mətbuat orqanlarında da davam etdirib.

Şair Qasım Qasımzadə 1949-cu ildə yazdığı bir şeirdə öz müəlliminə məhəbbətini belə dilə gətirmişdi:

Nuşirəvan müəllim öyrətdi bizə,
Yerlərin, göylərin neçə sirrini.
Qatdı şərbət kimi o, dilimizə
Vaqifin, Sabirin şeirlərini.

Yüzlərlə ali təhsilli mütəxəssisin, onlarca mollanəsrəddinçinin qəlbində yaşayan Nuşirəvan Kərimov poeziyamızın "İstot"u idi. O, 1966-cı ildə vəfat etmiş, qəbri indi işğal altında olan Xocamsağlı kəndindədir. "Molla Nəsrəddin" jurnalının 100 illiyi ilə bağlı görülən səmərəli işlərdən biri də məhz bu müəllifə yönəldilməlidir. Yaddaşlarda yaşayan əsərlərini, eləcə də jurnalda dərc edilmiş müxtəlif yazılarının saf-çürük edilib ayrıca kitab şəklində çap olunması vacibdir. Bu, hər şeydən əvvəl mollanəsrəddinçi müəllifə, eləcə də böyük ziyalıya, unudulmaz xalq müəlliminə sevgimiz və ehtiramımız sayılar.

Flora XƏLİLZADƏ, "Azərbaycan"

Yıxılmadı, molla nigahı oxu



Bax buna nə demişəm! Buna heç söz yoxdur. Bərəkallah

Sizə belə uşkolalar yaramaz, tez dağıdın

Ata və arvada etibar yoxdu (Hamam səfəri)



Dörd dənə kifayətdir

Babı oğlu babı, sən mənnən uşaq qazanmayıbsan ki zornan çəkirsən məktəbə